| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | EDU 511, Təhsilin idarə olunması, 6 AKTS |
| | **Departament** | Təhsil |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Günay Qasımova |
| | **E-mail:** | gunay.gasimova@khazar.org |
| | **Mühazirə otağı/Cədvəl** | Nərimanov korpusu, I və V günlər |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılaraq üzbəüz və ya onlayn formada |
| **Prerekvizitlər** | EDU 101 Təhsilə giriş; EDU 302 Kurikulum və qiymətləndirmə strategiyaları | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat:**<br><br>1. Təhsilin idarə edilməsi, Bakı: “ADPU nəşriyyatı”, 2025, 191 səh.<br>2. İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı . Bakı 2013. 280 səh.<br>3. Management, Administration and Planning in Education, V.E Mogboh (2025)<br>4. Carl D. Glikman (2018) Supervision and Instructional Leadership<br>5. K. B. Everard, Geoffrey Morris and Ian Wilson (2004) Effective School Management.<br><br>**Əlavə ədəbiyyat:**<br><br>1. Michael Fullan (2007) The new meaning of Educational Change.<br>2. Azərbaycan Respublikasının Təhsil Qanunu (2009)<br>3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası sənədi (2013)<br>4. Daxili keyfiyyət təminati üzrə metodik tövsiyə. Bakı, 2022. 116 səh.<br><br>Onlayn resurs (www.edu.gov.az)<br><br>Qeyd: İngilis dilində olan ədəbiyyatdan auditoriyada müzakirə olunacaq mövzular tərcümə olunub, təqdimat şəklində | |

| | | | |
|---|---|---|---|
| | sadələşdirilərək tələbələrə təqdim olunacaq və bütün dərsliklərin elektron forması Teams platformasında yaradılacaq qrupda yerləşdiriləcək. | | |
| **Kursun təsviri** | Təhsilin idarə olunması kursu tələbələrə təhsildə idarəetmənin əsas anlayışlarını, müasir idarəetmə və liderlik yanaşmalarını, təşkilati strukturları, qərarvermə mexanizmlərini və insan resurslarının idarə olunmasını öyrədir. Kurs çərçivəsində təhsil sistemlərində mərkəzləşmiş və desentralizə olunmuş idarəetmə, dəyişikliklərin və risklərin idarə edilməsi, keyfiyyət təminatı və məktəb rəhbərliyinin rolu kimi mövzular müzakirə olunur. İnteraktiv dərslər və qrup müzakirələri vasitəsilə tələbələrin analitik, tənqidi düşünmə və praktik idarəetmə bacarıqları inkişaf etdirilir. | | |
| **Kursun məqsədləri** | Tələbələrə təhsilin idarə olunmasının əsas anlayışlarını, idarəetmə prosesində etik prinsipləri və etik dilemmləri izah etmək;<br>Təhsil təşkilatlarında liderlik, qərarvermə və menecment fəaliyyətlərinin etik məsuliyyət, şəffaflıq və ədalət prinsipləri əsasında həyata keçirilməsinin əhəmiyyətini formalaşdırmaq;<br>Təhsildə insan resurslarının idarə olunması, motivasiya və konfliktlərin həllində etik yanaşmaların tətbiqini öyrətmək;<br>Təhsil müəssisələrinin idarə olunmasında dəyişikliklərin, risklərin və keyfiyyət təminatı proseslərinin etik çərçivədə analiz olunması bacarığını inkişaf etdirmək. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Fənni uğurla bitirən tələbə:**<br>FTN 1. Təhsilin idarə olunması və menecmentinin əsas anlayışlarını, funksiyalarını və prinsiplərini izah edir.<br>FTN 2. Təhsil sistemində idarəetmənin müxtəlif səviyyələrini, mərkəzləşdirilmiş və desentralizasiya olunmuş yanaşmaları və onların qarşılıqlı əlaqələrini izah edir.<br>FTN 3. Təhsil müəssisələrinin təşkilati strukturlarını və idarəetmə modellərini təhlil edir və onların idarəetmədə rolunu izah edir.<br>FTN 4. Təhsildə liderlik və rəhbərlik yanaşmalarını, etik liderliyi və etik dilemmləri praktik situasiyalarda qiymətləndirir.<br>FTN 5. Təhsilin idarə olunmasında dəyişikliklərin, stresin və adaptasiya proseslərinin rolunu idarəetmə baxımından dəyərləndirir.<br>FTN 6. Təhsil təşkilatlarında effektiv ünsiyyət, kommunikasiya kanalları və informasiya axınının idarəetmədə rolunu təhlil edir.<br>FTN 7. İnsan resurslarının idarə olunması, motivasiya, stresin idarə edilməsi və komanda daxili ünsiyyəti menecment kontekstində təhlil edir.<br>FTN 8. Təhsildə keyfiyyətin idarə olunması və daxili keyfiyyət təminatının əsas mexanizmlərini və praktik əhəmiyyətini dəyərləndirir. | | |
| **Tədris metodları** | Qrup müzakirələri | + | |
| | Diskusiyalar (Refleksiyalar) | + | |
| | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |

| | | | |
|---|---|---|---|
| **Qiymətləndirmə** | **Qrup işi (layihə)** | Semestr ərzində | 10 |
| | **Aktivlik (auditoriyada müzakirələrdə)** | Semestr ərzində | 5 |
| | **Davamiyyət** | Semestr ərzində | 5 |
| | **Quiz (2)** | Semestr ərzində | 10 |
| | **Aralıq imtahanı** | Aprel 2026 | 30 |
| | **Final imtahanı** | İyun 2026 | 40 |
| | **Yekun** | | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Qrup işi (layihə)**<br>Tələbələr qrup şəklində (5 nəfərlik) semestrin əvvəlində seçilmiş bir mövzu üzrə araşdırma aparmalı və layihə hazırlamalıdır. Mövzular əvvəlcədən tələbələrə təqdim olunur. Semestrin sonunda, final imtahanından əvvəl, tələbələr qrup şəklində 20 dəqiqədən artıq olmamaq şərtilə mövzularını auditoriyaya təqdim edəcəklər. Bu tapşırıq tələbələrin təhsil sahəsində menecment, liderlik, etik qərarvermə, tənqidi düşünmə, komanda ilə işləmə, praktik planlama və təqdimat bacarıqlarını inkişaf etdirməyi hədəfləyir.<br>***Qrup işi üçün qiymətləndirmə meyarları***<br>**10 bal:** Qrup mövzunu tam və dərindən araşdırmışdır. Liderlik, stres, adaptasiya və effektiv ünsiyyət anlayışları aydın şəkildə izah edilmiş, praktik nümunələrlə əsaslandırılmışdır. Təqdimat məzmun və struktur baxımından yüksək səviyyədə təşkil olunmuşdur. Qrupun bütün üzvləri (5 nəfər) fəal iştirak etmiş, rollar aydın bölüşdürülmüş və çıxışlar arasında uyğunluq qorunmuşdur. Ünsiyyət aydın və koordinasiyalıdır.<br>**9-8 bal:**<br>Qrup mövzunu ümumilikdə yaxşı araşdırmışdır, lakin bəzi məqamlar daha dərindən təhlil edilə bilərdi. Təqdimatın strukturu əsasən məntiqlidir. Qrup üzvlərinin əksəriyyəti fəal iştirak etmiş, lakin bir-iki üzvün çıxışı digərlərinə nisbətən zəif olmuşdur. Ünsiyyət ümumilikdə qənaətbəxşdir.<br>**8-7 bal:**<br>Mövzu əsasən işlənmişdir, lakin məzmun kifayət qədər dərin deyil. Təqdimatda struktur zəif hiss olunur. Qrup üzvləri arasında iştirak bərabər deyil, bəzi üzvlər passivdir və qrupdaxili ünsiyyət tam formalaşmamışdır.<br>**6-4 bal:** Mövzu üzrə əsas anlayışlar qeyd olunmuşdur, lakin təqdimat sistemsizdir. Qrup üzvləri arasında rol bölgüsü aydın deyil, təqdimat əsasən bir və ya iki tələbənin üzərində qurulmuşdur. Qrupdaxili və auditoriya ilə ünsiyyət zəifdir.<br>**3-1 bal:** Mövzu çox səthi araşdırılmışdır və əsas anlayışlar ya düzgün izah olunmamış, ya da ümumiyyətlə əhatə edilməmişdir. Qrup işi prinsipləri pozulmuşdur: üzvlərin əksəriyyəti təqdimatda iştirak etməmiş, koordinasiya və ünsiyyət çox zəif olmuşdur.<br>**Fəal iştirak**<br>Müəllim aktivliyi izləyəcək və qeyd edəcək. Xüsusi səbəb olmadıqda, tələbənin hər dərsdə iştirak etməsi vacibdir.Dərsə |

| | |
|---|---|
| | gəlməyən tələbənin və ya dərs prosesində müzakirələrdə iştirak etməkdən imtina edən tələbənin davamiyyət balı azalacaq. İştirak etmədiyi dərsin qeydlərini və mövzularını digər tələbələrdən əldə etmək tələbənin öz məsuliyyətidir. Tələbələr bütün planlaşdırılmış qrup müzakirələrində fəal iştirak etməsi nəzərdə tutulur. Onların iştirakı diqqətlə izləniləcək və qiymətləndiriləcək. Dərs zamanı müzakirələr tələbələrin ilkin araşdırma, müxtəlif mövzular üzrə refleksiya etmək bacarıqlarını inkişaf etdirməyi hədəfləyir.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs (8 qayıb) buraxan tələbələr imtahana buraxılmır. (3 qayıb =1 bal). Tələbə dərsə 15 dəqiqədən artıq gecikmişdirsə, tələbəyə qayıb yazılır, amma tələbə dərsə buraxılır.<br>**Quizlər**<br>Semestr müddətində, aralıq və yekun imtahanlardan əvvəl quizlər təşkil edilir. Bu qiymətləndirmə forması tələbələrin bilik və bacarıqlarının mütəmadi olaraq formativ şəkildə yoxlanılmasına xidmət edir. Quizlərin əsas məqsədi tələbələrin tədris materiallarını sistemli şəkildə hansı səviyyədə mənimsədiyini və onların hazırlıq səviyyəsini izləməkdir. Testlər əsasən 0.5 bal dəyərində 10 çox variantlı qapalı sualdan ibarət olur.<br>**İmtahanlar**<br>Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. Aralıq və final imtahan sualları semestr ərzində keçirilən, Teams platformasında yüklənən e-dərsliklərdən götürülmüş, tərcümə olunmuş və auditoriyada müzakirə edilmiş mövzuları, vizual təqdimatları əhatə edir.<br>**Tələbənin kursu başa vurması**<br>60% və daha artıq bal toplamış tələbə kursu bitirmiş hesab olunur. Final imtahan nəticəsi 100 baldan 57, 58 və ya 59 bal taplayan tələbələr dekanlığın icazəsi ilə tamamlama imtahanına müraciət edə bilərlər. Əks halda tələbə bu kursu yenidən keçməlidir.<br>**Plagiat**<br>Təqdimat tələbələrin orijinal işi olmalıdır. Onlayn materiallardan, kitablardan və ya digər tələbələrin işlərindən düzgün istinad etmədən köçürmək plagiat hesab olunur. Əgər plagiat aşkarlanarsa, tələbənin təqdimatı sıfır balla dəyərləndirilir. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1. | 16.02.2026 | -Sillabusun məzmunu haqqında ümumi məlumat<br>-Təhsilin idarəolunması fənninə giriş | **Diaqnostik qiymətləndirmə**<br>*Fənnin effektiv tədrisini təmin etmək məqsədilə IV kurs tələbələrinin əvvəlki illərdə keçdikləri prerekvizit fənlər üzrə bilik səviyyəsi diaqnostik qiymətləndiriləcəkdir. Qiymətləndirmənin nəticələri tədris strategiyalarının uyğunlaşdırılmasına əsas yaradacaqdır.*<br>Təhsilin idarə edilməsi, Bakı: “ADPU nəşriyyatı”, 2025, 191 səh. **Oxu materialı: səh. 5-12** |
| 2 | 23.02.2026 | -İdarəetmənin mahiyyəti, funksiyaları və prinsipləri İdarəetmənin inkişaf mərhələləri və əsas nəzəri yanaşmalar (Elmi idarəetmə, klassik və müasir yanaşmalar) | Təhsilin idarə edilməsi, Bakı: “ADPU nəşriyyatı”, 2025, 191 səh. **Oxu materialı: səh. 30-40** Mogboh (2025) *Reading material: What is Educational Administration?* **Oxu materialı səh. 5-20** (Azərbaycan dilində təqdimatı hazırlanıb, tərcümə ediləcək) |
| 3 | 02.03.2026 | -Təhsildə liderlik və idarəetmə anlayışları (Lider-menecer fərqi, liderliyin əsas modelləri) | İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı . Bakı 2013. 280 səh. **Oxu materialı: səh. 125-142**<br>K. B. Everard, Geoffrey Morris and Ian Wilson (2004) Effective School Management. **Oxu materialı səh. 15-24.**<br>(Azərbaycan dilində təqdimatı hazırlanıb, tərcümə ediləcək) |
| 4 | 13.03.2026 | Təhsil təşkilatlarında idarəetmə modelləri və qərarvermə<br><br>Təşkilati strukturlar, menecment fəlsəfəsi | Təhsilin idarə edilməsi, Bakı: “ADPU nəşriyyatı”, 2025, 191 səh. **Oxu materialı: səh. 66-83** Mogboh (2025), rəhbərlik üslubları səh 20-24. |
| 5 | 16.03.2026 | Menecmentin fəlsəfəsi Menecerlərin fəaliyyət prinsipləri | *Təhsilin idarə edilməsi*, Bölmə I.1.2 (s.20–29) |

| | | | |
|---|---|---|---|
| | | İdarəetmə və menecment arasındakı fərqlər | Təhsilin idarə edilməsi, Bakı: "ADPU nəşriyyatı", 2025, 191 səh. **Oxu materialı: səh 20-30**<br>-İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. "Aypara" Nəşriyyatı . Bakı 2013. 280 səh. **Oxu materialı: Səh 19-45, səh 127-142** |
| 6 | 03.04.2026 | -Təhsilin idarə olunmasında insan faktoru<br><br>-Şəxsiyyətin idarəetməyə təsiri | İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. "Aypara" Nəşriyyatı . Bakı 2013. 280 səh. **Oxu materialı: səh 46-67** |
| 7 | 13.04.2026 | -Təhsil sistemlərinin idarə olunması metod və prinsipləri<br><br>-Mərkəzləşdirilmiş və desentralizasiya olunmuş idarəetmə | -Təhsilin idarə edilməsi, Bakı: "ADPU nəşriyyatı", 2025, 191 səh. **Oxu materialı: səh 14-50**<br><br>-Azərbaycan Respublikasının Təhsil Qanunu (2009) **Oxu materialı: Maddə 3. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri** |
| 8 | | Təhsilin idarə olunmasında dəyişikliklərin və risklərin idarə edilməsi<br>Dəyişiklik, stres, adaptasiya | İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. "Aypara" Nəşriyyatı . Bakı 2013. 280 səh. **Oxu materialı: səh. 144-156<br>səh. 175-182**<br><br>Michael Fullan (2007) The new meaning of Educational Change. **Oxu materialı səh. 64-83.** (Azərbaycan dilində təqdimatı hazırlanıb, tərcümə ediləcək) |
| **Aralıq imtahanı** | | | |
| 9. | 27.04.2026 | Təhsilin idarə olunmasında motivasiya və insan resurslarının idarə edilməsi | İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs |

| | | | |
|---|---|---|---|
| | | (Motivasiya nəzəriyyələri-idarəetmə kontekstində) | vəsaiti. "Aypara" Nəşriyyatı . Bakı 2013. 280 səh. **Oxu materialı: səh. 69-100**<br><br>K. B. Everard, Geoffrey Morris and Ian Wilson (2004) Effective School<br>**Management. Oxu materialı səh. 25-45.**<br>(Azərbaycan dilində təqdimatı hazırlanıb, tərcümə ediləcək) |
| 10. | 04.05.2026 | Təhsil təşkilatlarında idarəetmə kommunikasiyası (Effektiv ünsiyyət, informasiya axını) | İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. "Aypara" Nəşriyyatı . Bakı 2013. 280 səh. **Oxu materialı: səh. 185-207**<br>Carl D. Glikman (2018) Supervision and Instructional Leadership **Oxu materialı səh.** 439-457 (Azərbaycan dilində təqdimatı hazırlanıb, tərcümə ediləcək) |
| 11. | 11.05.2026 | Bayram günü | |
| 12. | 18.05.2026 | Məktəbin idarə olunması və təhsil müəssisəsində rəhbərin rolu<br>(Direktorun vəzifələri, kollegial idarəetmə) | Təhsilin idarə edilməsi, Bakı: "ADPU nəşriyyatı", 2025, 191 səh<br>**Oxu materialı: səh. 128-165**<br>**-Müəllim tərəfindən hazırlanacaq xüsusi təqdimat** |
| 13. | 25.05.2026 | Təhsildə keyfiyyətin idarə olunması və daxili keyfiyyət təminatı | Daxili keyfiyyət təminati üzrə metodik tövsiyə. Bakı, 2022. 116 səh. **Oxu materialı səh.25-40**<br>Carl D. Glikman (2018) Supervision and Instructional Leadership **Oxu materialı səh. 267-300**<br>(Azərbaycan dilində təqdimatı hazırlanıb, tərcümə ediləcək) |
| 14. | 27.04.2026 | Azərbaycanda təhsilin idarə olunması: islahatlar, problemlər və perspektivlər | -Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası sənədi (2013)<br><br>-Elm və Təhsil Nazirliyinin elektron səhifəsindəki mənbələrə istinad edilərək müəllim tərəfindən hazırlanacaq xüsusi təqdimat |

| | | | |
|---|---|---|---|
| 15. | 29.05.2026 | Qrup işlərinin təqdimatı<br>Keçirilən mövzuların yekun müzakirəsi | Müəllim tərəfindən hazırlanacaq təqdimat |
| **Final imtahanı** | | | |